**MÖVZU: Günahlara qarşı necə düzgün yanaşmaq lazımdır?**

**MÜQƏDDİMƏ**

Əbu Hureyrədən (Allah ondan razı olsun) rəvayət olunur ki, Peyğəmbər ﷺ belə demişdir: **"Hər kim, zövcəsi ilə yaxınlıq etmədən (ehramlı halda) və həmçinin günah və nalayiq bir iş görmədən, Allahı üçün həcc edərsə, o zaman həccdən sonra, anadan doğulduğu kimi (günahsız) qayıdar"** (Buxari, Muslim)

Həmçinin, Amr ibn əl-Asın (Allah ondan razı olsun) rəvayət etdiyi hədisdə, Allah Rəsulu ﷺ belə buyurmuşdur: "**İslam, özündən əvvəl olanları (günahları) silər, həcc özündən əvvəlkiləri (günahları) silər, hicrət özündən əvvəlkiləri (günahları) silər"** (Müslim)

Həmçinin, Allah Rəsulu ﷺbuyurmuşdur: **"Ümrədən sonra edilən ümrə, onların arasında edilən günahların kəffarəsi olar, doğru-düzgün həccin isə Cənnətdən başqa mükafatı yoxdur!"**
(Buxari, Müslim)

Allahdan, hamımızı bu hədislərdə qeyd olunanlardan qərar verməsini diləyirik!

Məkkədən evə qayıdaraq, təbii ki, hər birimiz Allahın razılığını və bu cür pak vəziyyətdə qalmağı istəyirik. Amma biz hamımız insanıq və hamımız günah edirik. Beləliklə, sual yaranır. Günahdan qurtula bilmədiyim halda, Rəbblə necə münasibət qura bilərəm? Birincisi, yadımıza salmalıyıq ki, yer üzündə günahsız insan yoxdur.

Ənəs (Allah ondan razı olsun) rəvayət edir ki, Rəsulullah ﷺ belə buyurmuşdur:

كُلُّ ابْنِ آدَمَ خَطَّاءٌ وَخَيْرُ الْخَطَّائِينَ التَّوَّابُونَ
**"Hər bir Adəm övladı xəta edər, lakin xəta edənlərin ən yaxşısı tövbə edənlərdirlər."**
(Tirmizi 2499)

Həmçinin, Əbu Əyyubdan (Allah ondan razı olsun) rəvayət olunur ki, ona ölüm gəldiyi zaman o insanlara belə dedi:**"Mən, Rəsulullahdan eşitdiyimi, sizdən gizlətdim. Mən, Rəsulullahın ﷺ belə dediyini eşitdim: لولا أنكم تذنبون لخلق الله خلقاً يذنبون فيغفر لهم. («الصحيحة» ١٩٦٣) "Əgər siz, günah etməsəydiniz, Allah günah edən məxluqları yaradar və onları bağışlayardı"** (Səhihə 1963)

Ancaq problem ondadır ki, bir çoxumuz, bəzi günahlardan tam qurtula bilməyəndə, bu günahlara qarşı necə doğru şəkildə davranmaq lazım olduğunu bilmirik.Ona görə də, bir çoxları, hər hansısa bir günah işlədikdə, özlərini həbsxanada, qaranlıq yerdə hiss edir və bu qaranlıq yerdən necə qurtulacağını bilmirlər. Halbuki, bu qaranlıq yerdə pəncərələr və qapılar açıqdır. Ancaq o insan, sadəcə və sadəcə olaraq onları görmür. Çünki, gunahlarla necə davranmaq lazım olduğu haqqında biliyin yoxluğu, o adamı çıxılmaz vəziyyətə salır və xeyir işlər görməkdən imtina etməyə gətirib çıxarır. İkinci məqam, hansınıki biz mənimsəməliyik, bilmək lazımdır ki, hər bir insanın qədərinə (alın yazısına) günah işlətmək yazılmış və əvvəlcədən müəyyən edilmişdir. Bu da, Allahın Subhana va Təalanın bizim yaşayışımızda olan qanunlarındandır. Və buna yuxarıdakı hədislər dəlalət edirlər. Bir çox insanlar düşünürlər ki, Allahdan qorxan insan olmaq üçün, gərək insan müttəqi olsun, saleh olsun. Bu, həqiqətdən çox uzaqdır. Biz sizinlə, Bəqavinin təfsirini izah edərkən, Uca Allahu Təalənin, aşağada qeyd olunan insanları, bu cür sifətlərlə təvsir etdiyi, kəlamını müzakirə etmişdik.

وَسَارِعُوا إِلَىٰ مَغْفِرَةٍ مِّن رَّبِّكُمْ وَجَنَّةٍ عَرْضُهَا السَّمَاوَاتُ وَالْأَرْضُ أُعِدَّتْ لِلْمُتَّقِينَ
**Rəbbiniz tərəfindən bağışlanmağa və müttəqilər üçün hazırlanmış, genişliyi göylər və yer qədər olan Cənnətə tələsin.**

الَّذِينَ يُنفِقُونَ فِي السَّرَّاءِ وَالضَّرَّاءِ وَالْكَاظِمِينَ الْغَيْظَ وَالْعَافِينَ عَنِ النَّاسِ وَاللَّهُ يُحِبُّ الْمُحْسِنِينَ
**O müttəqilər ki, bolluq zamanı da, qıtlıq zamanı da (mallarından Allah yolunda) xərcləyir, qəzəblərini boğur və insanları bağışlayırlar. Allah yaxşı iş görənləri sevir.**

وَالَّذِينَ إِذَا فَعَلُوا فَاحِشَةً أَوْ ظَلَمُوا أَنفُسَهُمْ ذَكَرُوا اللَّهَ فَاسْتَغْفَرُوا لِذُنُوبِهِمْ
**O kəslər ki, bir pis iş gördükdə, yaxud özlərinə zülm etdikdə Allahı xatırlayıb günahlarının bağışlanmasını diləyərlər,**

**وَمَن يَغْفِرُ الذُّنُوبَ إِلَّا اللَّهُ وَلَمْ يُصِرُّوا عَلَىٰ مَا فَعَلُوا وَهُمْ يَعْلَمُونَ**
**– günahları Allahdan başqa kim bağışlaya bilər? – onlar bilə-bilə etdiklərinə görə israr etməzlər.**

**أُولَٰئِكَ جَزَاؤُهُم مَّغْفِرَةٌ مِّن رَّبِّهِمْ وَجَنَّاتٌ تَجْرِي مِن تَحْتِهَا الْأَنْهَارُ خَالِدِينَ فِيهَا ۚ وَنِعْمَ أَجْرُ الْعَامِلِينَ**
**Onların mükafatı, Rəbbindən bağışlanma və (ağacları) altından çaylar axan Cənnət bağlarıdır ki, orada əbədi qalacaqlar. (Yaxşı) əməl sahiblərinin mükafatı necə də gözəldir! (Ali İmran surəsi, 133-136 ayələr)**

Ona görə də, bu ayədə və buna bənzər ayələrdə və ya hədislərdə, açıq-aydın işarə edilib ki, insan, Uca Yaradan tərəfindən, Allahdan qorxan şəxs sayıla bilər və İhsan dərəcəsində ola bilər, amma eyni zamanda nəinki kiçik, hətta böyük günahlar da işləyə bilər. Ancaq, həmin bu ayələrdə gördüyük ki, əgər o insanlar belə bir iş görsələr, o zaman tövbə etməyə tələsərlər, dərhal Allahdan bağışlanma diləyərlər və günah etməkdən imtina edərlər. Yəni israr etmirlər.

Uca Allah, Peyğəmbər ﷺ haqqında buyurur:

**إِنَّا فَتَحْنَا لَكَ فَتْحًا مُّبِينًا**
**Həqiqətən, Biz sənə aydın bir qələbə verdik ki,**

**لِّيَغْفِرَ لَكَ اللَّهُ مَا تَقَدَّمَ مِن ذَنبِكَ وَمَا تَأَخَّرَ**
**Allah sənin əvvəlki və sonrakı günahlarını bağışlasın.**

Həmçinin rəvayət olunur ki, Aişə (Allah ondan razı olsun) belə demişdir: **"Peyğəmbər ﷺ adətən gecələr (o qədər) namaz qılardı ki, hətta dabanları çatlayardı. (Bir dəfə) Mən ondan soruşdum: "Nə üçün belə edirsən, ey Allahın Rəsulu, axı Allah sənin keçmiş və gələcək günahlarını bağışlayıb?" Və baxın, Peyğəmbər ﷺ demədi ki, mən heç vaxt gunah etmirəm, belə bir şey demədi. Amma o dedi: "Mən şükür edən bir qul olmayımmı?"** (Buxari 4837, Muslim 2820)

Ona görə də, əgər peyğəmbərlər (Allahın onlara salavat və salamı olsun) belə günaha düşə bilirlərsə, o zaman bu hal, təbii bir haldır. İnsanın təbiəti belədir. Ona görə də, bu məsələni dərk edərək, belə vəziyyətdən çıxmağın yolları ilə tanış olmalıyıq ki, gunahlarımızın əsiri olmayaq. Yəni, hətta gunahlardan birinə düşsən belə, sən sadəcə olaraq, bu vəziyyətdən çixiş yolunu bilməlisən.

**GÜNAH YÜKÜNDƏN QURTULMAQ ÜÇÜN YEDDİ ADIM VAR.**

Əvvəlcə hər birini ayrı-ayrılıqda sadalayacağıq və sonra təhlil edəcəyik.

**Birinci addım:**

Özünüzə qırmızı xətt və ya girməyə cəsarət etmədiyiniz, minalı bir sahə qoyun.

**İkinci addım:**

Əgər günaha düşsən, israr etmə.
Biz dedik ki, insanın fitrəti elədir ki, hamı günaha düçar olur.
Lakin insanın təbiəti, bizi günahlarımızda israr etməyə məcbur etmir.

**Üçüncü addım:**

Bir günah işlətsən belə, onu insanlardan gizlət.
Günahını Allahdan başqa heç kəs görməsin.
Şeytan üçün pulsuz reklam agenti olma.

**Dördüncü addım:**

Günahda həddi aşmayın. Yəni 24/7 bunu etmək lazım deyil. Günahınızı ən az saya endirməyə çalışın.

**Beşinci addım:**

Əgər günah etsən, bağışlanma dilə və tövbə et.
Nə qədərki ruh bədəndədir və ya günəş qərbdən çıxana qədər tövbə qapıları açıqdırlar.

**Altıncı addım:**

Əgər günah etmisənsə, ondan sonra, dərhal yaxşılıq et ki, bu günahın kəffarəsinə və bağışlanmasına səbəb olsun.

**Yeddinci addım:**

Allahın rəhmətindən ümidini kəsmə.

## İndi bu barədə ətraflı danışaq!

**Birinci addım.**

Özünüzə qırmızı xətt və ya girməyə cəsarət etmədiyiniz minalı bir sahə qoyun. İslama daxil olan və bu dinə etiqad etməyə başlayan müsəlman, hər kəsdən fərqli olmalıdır.Çünkü o, İslama girərək başa düşür ki, dində qırmızı xətt var, yaxud məcazi olaraq buna "mina sahəsi" demək olar. Yəni bu xətti keçmək və ya bu mina sahəsinə girməklə, insan İslamı tərk edir və küfr, şirk və ya insanı məhv edən böyük günahlara düçar olur. Təsəvvür edin, bir insan səhrada bir yol ilə gedir və qarşısında bir neçə yol görür və yollardan birinin qarşısında "Mina sahəsi" yazısı ilə olan bir plakat var, məgər orada hər hansı bir kamera və ya mühafizə lazımdır? Yox! Bu sahədə heç kim gəzməyəcək! Axı ora girən bilir ki, dərhal yox olacaq!

Bu qırmızı xətlərdən və ya minalanmış sahələrdən aşağadakilar movcuddurlar:

1 — Şirk - yəni Allaha şərik qoşmaq. Allahın insanlar üzərində haqqı ilə əlaqəli hər şeydir. Onun ad və sifətləri ilə bağlı olan hər bir şeydir. Rəbbin əməlləri ilə (rububiyyə) bağlı olan heç bir şeyə yaxınlaşmayın!

Məsələn, biz Qurandan bilirik ki, gizli olanı, yəni gələcəyi ancaq Allah bilir! Odur ki, diqqətli olun ki, kimsə sizi aldatmasın və gizli olanı bildiyini irəli sürməsin! Misal üçün, ulduz falı yazanlar kimi! Onlar əmindirlər ki, gələcəyi Allahdan başqaları da bilirlər! Allah, Quranda qayğıkeşliklə belə buyuraraq qırmızı xətt çəkmişdir:

قُل لَّا يَعْلَمُ مَن فِي السَّمَاوَاتِ وَالْأَرْضِ الْغَيْبَ إِلَّا اللَّهُ
**De: "Allahdan başqa, göylərdə və yerdə olanların, heç biri qeybi bilməz. (ən-Nəml surəsi, 65-ci ayə)**

Həmçinin Allah, yaratdıqlarının ən şərəflilərindən olan, Peyğəmbərdən də ﷺ bəhs etmişdir:

قُل لَّا أَمْلِكُ لِنَفْسِي نَفْعًا وَلَا ضَرًّا إِلَّا مَا شَاءَ اللَّهُ
**De: "Mən, Allahın istədiyindən başqa, özümə nə bir fayda, nə də bir zərər yetirməyə qadir deyiləm.**

وَلَوْ كُنتُ أَعْلَمُ الْغَيْبَ لَاسْتَكْثَرْتُ مِنَ الْخَيْرِ وَمَا مَسَّنِيَ السُّوءُ
**Əgər qeybi bilsəydim, əlbəttə, (özüm üçün) xeyir artırardım və mənə pislik toxunmazdı.**

إِنْ أَنَا إِلَّا نَذِيرٌ وَبَشِيرٌ لِّقَوْمٍ يُؤْمِنُونَ
**Mən sadəcə, iman gətirən bir camaat üçün qorxudan və müjdələyənəm". (əl-Əraf surəsi, 188-ci ayə)**

Biz sizinlə, münafiqlərin Aişəni zina etməkdə ittiham etdikləri hədisi müzakirə etmişik. Peyğəmbər ﷺ bir ay ərzində Aişənin günahsız olduğu barədə ayələr nazil olana qədər çaşqınlıq içində idi! Namazı tərk etmək də, qırmızı xəttə daxildir. Biz bilirik ki, namaz qılmayanın müsəlman olub-olmaması barədə alimlər arasında ixtilaf var!

Həmçinin, insanların haqqlarından da uzaq olun! Əgər hər hansı bir günah işlətsəniz, o gunah sizinlə Allah arasında olsun, yəni sırf Allahın haqqı ilə bağlı olan bir şey olsun. Axı, yalnız Allahın haqqı ilə bağlı olan şey, bağışlanma, həlimlik və mərhəmət üzərində qurulur! Heç bir halda, öz hüquqlarını müdafiə edə bilməyən zəiflərə, acizlərə zərər vermə. Allahın bəndələrinə xainlik etməyin! Çünki Allah belə şeyləri cəzasız qoymaz.

وَلَا يَحِيقُ الْمَكْرُ السَّيِّئُ إِلَّا بِأَهْلِهِ
**...Yaramaz hiylələr isə, ancaq öz sahiblərini qaplayar... (Fatir surəsi, 43-cü ayə)**

Əgər ağıl və zəka ilə seçildiyini və insanlarla hiyləgərlik edə bildiyini və xəyanət edə biləcəyini düşünürsənsə, o zaman Uca Allahın bu sözlərini xatırla:

وَيَمْكُرُونَ وَيَمْكُرُ اللَّهُ وَاللَّهُ خَيْرُ الْمَاكِرِينَ
**Onlar hiylə qurdular, Allah da hiylə qurdu. Allah hiylə quranların ən yaxşısıdır. (Ali İmran surəsi, 54-cü ayə)**

**Həmçinin, Uca Allah buyurur:**

إِنَّهُمْ يَكِيدُونَ كَيْدًا
**Həqiqətən, (kafirlər) hiylə qururlar.**

وَأَكِيدُ كَيْدًا
**Mən də hiylə qururam. (ət-Tariq surəsi, 15-16 ayələr)**

**Həmçinin Uca Allah buyurur:**

يُخَادِعُونَ اللَّهَ وَالَّذِينَ آمَنُوا
**Onlar Allahı və iman gətirənləri aldatmağa çalışırlar.**

وَمَا يَخْدَعُونَ إِلَّا أَنفُسَهُمْ وَمَا يَشْعُرُونَ
**Halbuki yalnız özlərini aldadır və (bunu) anlamırlar. (əl-Bəqərə surəsi, 9-cu ayə)**

Həmçinin, Uca Allah buyurur:

يَا أَيُّهَا النَّاسُ إِنَّمَا بَغْيُكُمْ عَلَىٰ أَنفُسِكُم
**…Ey insanlar! Azğınlığınız, yalnız sizin öz əleyhinizədir... (Yunus surəsi, 23-cü ayə)**

Odur ki, insanların qanına, namusuna, malına yaxınlaşmayın!
İnsanların qanına, namusuna və malına qəsd edən şəxsin, gec-tez mütləq qanına, namusuna, malına başqaları qəsd edərlər.

وَكَذَٰلِكَ نُوَلِّي بَعْضَ الظَّالِمِينَ بَعْضًا بِمَا كَانُوا يَكْسِبُونَ
**Beləliklə, qazandıqları (günahlara) görə zalımların bir qismini digərinə hakim təyin edərik.**
**(əl-Ənam surəsi, 129-cu ayə)**

Qullar, Allahdan fərqli olaraq, tamahkardırlar. Qullar bağışlamazlar, mütləq haqqlarını tələb edərlər!

عن أبي بكرة مرفوعا : «ما من ذنب أجدر أن يعجل الله تعالى لصاحبه العقوبة في الدنيا مع ما يدخر له في الآخرة من البغي وقطيعة الرحم».
((«الصحيحة» ٩١٨
**Əbu Bəkrətdən rəvayət olunur ki, Peyğəmbər ﷺ demişdir: "İnsanlara qarşı ədalətsiz rəftar və qohumluq əlaqələrini kəsmək qədər, ağır günah yoxdur. Allahu Təalənın bu əməli edəni, axirətdə hazırlanmış əzabdan əlavə olaraq, bu dünyada da tez bir zamanda cəzalandırar.**
**(başqa bir versiyada deyilir: "valideynlərə qarşı pislik edən")** (Səhihə, 918)

Həmçinin, Ənəsdən rəvayət olunur ki, Peyğəmbər ﷺ demişdir:

الظلم ثلاثة،
**"Zülmün üç növü var:**

فظلم لا يتركه الله
**- Allahın, mühakiməsiz qoymayacağı zülm,**

وظلم يغفر
**- Allahın, bağışlayacağı zülm,**

وظلم لا يغفر
**- Allahın, bağışlamayacağı zülm.**

**— Allahın bağışlamadığı zülmə gəlincə — bu, şirkdir.**
**— Allahın bağışladığı zülmə gəlincə — bu, bəndənin onunla Rəbbi arasında olan haqsızlıq, zülmdir (səhvlər və günahlar).**
**— Allahın mühakiməsiz qoymadığı zülmə gəlincə — bu , Allahın bəndələrinin bir birinə olan zülmü, haqsızlığıdır və Allah Qiyamət günü, bəzilərinin haqqını digərindən almasını təmin edəcəkdir."**
(Səhihə, 1927).

Həmçinin qırmızı xətt və ya mina sahəsi kimi, insanı asılı vəziyyətə salan günahlar var: siqaretə, narkotikə, alkoqol və bu kimi şeylərə sövq edən günahlardırlar.

Bir ərəb şairi deyir:

**وَكَأسٍ شَرِبتُ عَلى لَذَّةٍ**
**وَأُخرى تَداوَيتُ مِنها بِها**
**Birinci badəni içdim, ondan ləzzət ala-ala.**
**İkincini isə məcbur içdim ki, asılılıqdan qurtulmaq üçün.**

Bu işlər hamısı belədir. Əvvəlcə ondan ləzzət almaq üçün istifadə edir, sonra isə bu günahdan əl çəkə bilmir! Ona görə də, İslama daxil olan mömin, qırmızı xətlərə, minalanmış sahələrə diqqət edərək xəritə ilə hərəkət etməlidir! Əgər buna riayət etsən, o zaman deyə bilərik ki, şeytanın 80 % hiylələrindən xilas oldunuz!

**İkinci addım.**

Əgər günaha düşdünsə, israrlı olma. Biz dedik ki, insanın təbiəti elədir ki, hər kəs günaha düşə bilər. Lakin insanın təbiəti, bizi günahlarımızda israr etməyə məcbur etmir. Necə ki, bəzi insanlar, günahlarını həyat tərzinə çevirirlər. Daim harama qulaq asar, haram içər, haram yeyər, harama baxarlar. Haram, onun həyatının ayrılmaz hissəsinə çevrilir! Allahu Təalə, günahlarında israr etməyənləri, imanlı kimi vəsf etmişdir.

**إِنَّ الَّذِينَ اتَّقَوْا إِذَا مَسَّهُمْ طَائِفٌ مِنَ الشَّيْطَانِ تَذَكَّرُوا فَإِذَا هُمْ مُبْصِرُون**
**Allahdan qorxanlara, şeytandan bir vəsvəsə toxunduğu zaman, (Allahı) xatırlayar və dərhal (gerçəyi) görərlər. (əl-Əraf surəsi, 201-ci ayə)**

Bizim (canlı) diri qəlblərimiz olmalıdır. Əgər hansısa günah etmişiksə, nəyinsə səhv getdiyini, təhlükəli vəziyyətdə olduğumuzu hiss etməliyik. Çünki Allahı qəzəbləndirmişik! Qəlb (canlı) diri olmalı və bu günahın acısını hiss etməlidir! Əgər insan, bu günahın ağrısını və təhlükəsini hiss etsə, dərhal bu günahı tərk edib tövbə edər! Ona görə də, Allah yolunda gedərkən, biz eyniylə maşın yolu ilə gedən, yolda maşını xarab olan sürücü kimi olmalıyıq. Maşın xarab olduqda, onu yolun kənarına itələyir, onu təmir edir, yola çıxır və yoluna davam edir! Biz də həmçinin o cür. Tutaq ki, günah etdik. Yolumuzdan çıxdıq. Nə olsun? İndi sahədə, yolsuzluqda hərəkət edək? Bəlli olmayan istiqamətdə? Yox, biz yoldan çıxarkən anladıq ki, günah etmişik. Günahı tərk etmək, tövbə etmək, bağışlanma diləmək və yenidən Allahın yoluna qayıtmaq lazımdır!

İbn Abbas, Allah ondan razı olsun, demişdir:

**لا صغيرة مع الاصرار و لا كبيرة ما الاستغفار**
**Kiçik günah kiçik sayılmaz, əgər insan bunu davamlı edirsə! Və böyük günah da, böyük sayılmayacaq, əgər insan bunun üçün davamlı bağışlanma diləyirsə!**

Ona görə də, inaddan çəkinmək lazımdır. Bunun səhv olduğunu, bunun yalnış olduğunu, bunun yoldan çıxmaq olduğunu anla! Tövbə et və qayıt və Allahın izni ilə qayıdacaqsan!

Əgər kimsə desə ki:
— "Bəli, mən günah edirəm. Həm də sürəkli. Günahlarımı davamlı edirəm. Və mənə elə gəlir ki, həyat tərzimi dəyişə bilmərəm. Bu mənim üçün çox çətin olacaq. Yəni günahları tərk etmək. Yəqin ki, mən bacarmayacam". Bunu bil, şeytan tövbəni sənə çətinləşdirmək üçün, bütün səbəblərdən istifadə edər. Yəni, içində olduğun günahı tərk etməyin, qeyri-mümkün və ya çox-çox çətin olduğunu, sənə vəsvəsə edəcək.

Qaydanı yadda saxla! Və hər zaman o sənin ürəyində olsun! "Allah haqqında yaxşı düşün! Əgər günah etdiyin halda da, Uca Allah, sənə yaxşılıq edirsə, ibadət etdiyin halda, səni tərk etməz. Biz günah edirik, amma O, bizə nemət verir, günahlarımızı insanların gözündən gizlədir, bizə xeyirxahlıq göstərir, bizi rüsvay etmir, cəzalandırmır.

**وَلَوْ يُؤَاخِذُ اللَّهُ النَّاسَ بِمَا كَسَبُوا مَا تَرَكَ عَلَىٰ ظَهْرِهَا مِن دَابَّةٍ**
**Əgər Allah, insanları etdikləri günahlara görə (dərhal) cəzalandırsaydı, yer üzündə bir canlını belə sağ buraxmazdı.**

**وَلَٰكِن يُؤَخِّرُهُمْ إِلَىٰ أَجَلٍ مُّسَمًّى**
**Lakin Allah, onlara müəyyən vaxtadək möhlət verir. (ən-Nəhl surəsi, 61-ci ayə)**

Əbu Musanın (Allah ondan razı olsun) sözlərindən rəvayət olunur ki, Peyğəmbər ﷺ buyurdu: **"Həqiqətən, Allahu Təalə gecələr əlini uzadır ki, gündüzlər pis iş görənlər tövbə etsinlər, gündüzlər də əlini uzadar ki, gecələr pis iş görənlər, günəş batdığı yerdən çıxana qədər tövbə etsinlər".** (Muslim 2759)

Hələ yalnız bu deyil, əgər insan tövbə edərsə, Allah bizim günahlarımızı yaxşı əməllərlə əvəz edər.

**إِلَّا مَن تَابَ وَآمَنَ وَعَمِلَ عَمَلًا صَالِحًا فَأُولَٰئِكَ يُبَدِّلُ اللَّهُ سَيِّئَاتِهِمْ حَسَنَاتٍ وَكَانَ اللَّهُ غَفُورًا رَّحِيمًا**
**Ancaq tövbə edib iman gətirən və saleh əməllər edənlərdən başqa. Allah onların pis əməllərini yaxşı əməllərlə əvəz edər. Allah Bağışlayandır, Rəhmlidir! (əl-Furqan surəsi, 70-ci ayə)**

Buna görə də, Allah haqqında yaxşı düşün! Ola bilməz ki, sən günah işləyərkən həyatdan həzz alasan, amma Ona ibadət etməyə başlasan əzab çəkəsən.

Peyğəmbər ﷺ buyurdu: **“Hər kim bir şeyi Allah rizası üçün tərk edərsə, Allah onu ən yaxşısı ilə əvəz edər!”**

**مَّن ذَا الَّذِي يُقْرِضُ اللَّهَ قَرْضًا حَسَنًا**
**Kim Allaha gözəl bir borc versə (malından Allah yolunda xərcləsə),**

**فَيُضَاعِفَهُ لَهُ أَضْعَافًا كَثِيرَةً**
**O da onun üçün bunu qat-qat artırar.**

**وَاللَّهُ يَقْبِضُ وَيَبْسُطُ وَإِلَيْهِ تُرْجَعُونَ**
**Allah (kimisinin ruzisini) azaldar, (kimisinin ruzisini də) artırar. Siz Ona qaytarılacaqsınız.**
**(əl-Bəqərə surəsi, 245-ci ayə)**

Ona görə də, kimsə Allah rizası üçün bir şey qurban edərsə, Allah ona daha yaxşısını verər!

**إِن يَعْلَمِ اللَّهُ فِي قُلُوبِكُمْ خَيْرًا يُؤْتِكُمْ خَيْرًا مِّمَّا أُخِذَ مِنكُمْ وَيَغْفِرْ لَكُمْ وَاللَّهُ غَفُورٌ رَّحِيمٌ**
**“Əgər Allah qəlbinizdə xeyir olduğunu bilsə, sizdən alınan fidyədən daha xeyirlisini sizə verər və sizi bağışlayar. Allah Bağışlayandır, Rəhmlidir”. (əl-Ənfal surəsi, 70-ci ayə)**

Bundan gözəl nə vəd ola bilər?! Allah sənə deyir! Mənim rizam üçün bir şeyi tərk et, sənə əvəzində daha yaxşısını verərəm! Bu da azdır, mən səni bağışlayacağam və rəhm edəcəm! Ona görə də, günahlara adi bir şey kimi baxmayın! Günahın böyüklüyünə baxma, kimin qarşısında günah etdiyinə bax.

Həmçinin, tövbə və istiğfar etməyə tələs!
Günah edən kimi, dərhal bağışlanma dilə! Hələ tövbə etməsən də, yenə də bağışlanma dilə.

**لولا أنكم تذنبوا لذهب الله بكم ولجاء بقوم يذنبون فيستغفرون الله فيغفر لهملخلق الله خلقاً يذنبون فيغفر لهم». («الصحيحة» ١٩٦٣ »).**
**“Əgər günah etməsəydiniz, Allah sizi məhv edərdi, günah edən və Allahdan bağışlanma diləyən insanlar yaradardı və onları bağışlayardı.”** (Səhihə, 1963)

İstiğfar nə deməkdir?

"Miğfər" sözündən götürülmüşdür — dəbilqə deməkdir!

İstiğfar — dəbilqə sözündən götürülüb, ona görə ki, istiğfarımız, bizi günahlarımızın pis nəticələrindən qoruyur. (Bu nəticələrə - rüsvayçılıq, elmdən məhrum olmaq, Allahın köməyindən məhrum olmaq, mənəvi pozğunluq, bərəkətdən məhrum olmaq və sair şeylər daxildirlər).

Əbu Hureyrənin belə dediyi rəvayət olunur: **“Mən Rəsulullahın ﷺ belə dediyini eşitdim:**
**“Allaha and olsun ki, mən gündə yetmiş dəfədən çox Allahdan bağışlanma diləyir və Ona tövbə edirəm”.**
(Buxari 6307)

Buna görə də, günahda israrla, mübarizə aparmağınıza kömək edəcək şeylərdən biri də, daim bağışlanma diləməkdir (istiğfar). Əsas odur ki, qəlb diri olsun, ağrıları hiss edə biləsən! Səhv bir şey etdiyini hiss edəsən deyə.

İbn Məsudun dediyi kimi:

**قال عبدُ اللهِ [ ابنُ مسعودٍ ] : إنَّ المؤمنَ يرَى ذنوبَه كأنه في أصلِ جبلٍ يخافُ أنْ يقعَ عليه وإنَّ الفاجرَ يرَى ذنوبَه كذبابٍ وقع على أنفِه قال به هكذا ، فطار .**
**“Mömin günahlarını dağ boyda görər və sanki o, dağın üstünə düşəcəyindən qorxar. Günahı kiçik görən facir (günahkar) isə işlədiyi günahı burnun üzərinə qonan milçək kimi görər”**

Həmçinin, kimsə deyə bilər ki:
"Mənə elə gəlir ki, tövbə edib bəzi günahlardan əl çəkəndə, problemlər yaranmağa başladı".
Daha əvvəl dediyimiz kimi, bu problemlər, sizin tövbə və bağışlanma diləmək şəklində təslim olmanızdan irəli gəlmir!
Başqa səbəblər var, və onlar haqqında Allah bilir. Əksinə, tövbə və təslimiyyət, ancaq rahatlıq verir.

**وَمَن يَتَّقِ اللَّهَ يَجْعَل لَّهُ مَخْرَجًا**
**...Allahdan qorxan hər bir insan üçün O, hər vəziyyətdən çıxış yolu yaradar**

**وَيَرْزُقْهُ مِنْ حَيْثُ لَا يَحْتَسِبُ**
**və ona heç gözləmədiyi yerdən də ruzi bəxş edər. (ət-Talaq surəsi, 2-3 ayələr)**

**وَمَن يَتَّقِ اللَّهَ يَجْعَل لَّهُ مِنْ أَمْرِهِ يُسْرًا**
**…Kim Allahdan qorxarsa, (Allah) onun işini asanlaşdırar. (ət-Talaq surəsi, 4-cü ayə)**

**وَمَن يَتَّقِ اللَّهَ يُكَفِّرْ عَنْهُ سَيِّئَاتِهِ وَيُعْظِمْ لَهُ أَجْرًا**
**Kim Allahdan qorxarsa, (Allah) onun (günahlarından) keçər və onun mükafatını artırar. (ət-Talaq surəsi, 5-ci ayə)**

Bu ayələr göstərirlər ki, Allah qorxusu - ancaq yaxşılığa, xeyrə səbəb olur. Bəlalardan, insanın başına gəlməsi isə, bəlkə də bu insana qarşı mərhəmətin göstəricisidir. Allah onun dərəcəsini qaldırır. Yaxud elə bir günah var ki, bəndə tövbə etməyib və Allah da onun bir günahına görə tövbə etdiyi üçün, başqa bir günahını da bağışlamaq istəyir. Çünkü müxtəlif sınaqlar, Rəbbə yaxınlaşmağa səbəb ola bilərlər.

**وَلَنُذِيقَنَّهُم مِّنَ الْعَذَابِ الْأَدْنَىٰ دُونَ الْعَذَابِ الْأَكْبَرِ لَعَلَّهُمْ يَرْجِعُونَ**
**Ən böyük əzabdan əvvəl, Biz onlara mütləq kiçik əzabdan (dünya əzabından) daddıracağıq ki, bəlkə (doğru yola) qayıtsınlar. (əs-Səcdə surəsi, 21-ci ayə)**

Bir şeyin baş verdiyini gördüyünüz zaman, unutmayın ki, günah etdiyiniz üçün, Allah sizi bircə “ol” sözü ilə məhv etməyə qadirdir! Halbuki O, sənin canını qurtarıb, səni məhv etməyib, duada səsini eşitmək üçün, qulunu özünə yaxınlaşdırmaq üçün mərhəmət edib!

**فَلَوْلَا إِذْ جَاءَهُم بَأْسُنَا تَضَرَّعُوا**
**Nə üçün əzabımız onlara gəldiyi zaman boyun əymədilər?**

**وَلَٰكِن قَسَتْ قُلُوبُهُمْ وَزَيَّنَ لَهُمُ الشَّيْطَانُ مَا كَانُوا يَعْمَلُونَ**
**Onların qəlbləri sərtləşdi, şeytan da onlara etdikləri əməlləri gözəlləşdirdi. (əl-Ənam surəsi, 43-cü ayə)**

Ona görə mömin, Allahın hər bir əməlinə müsbət nöqteyi-nəzərilə baxır və Allahın, onun üçün ancaq yaxşılıq istədiyinə inanır.

Peyğəmbər ﷺ demişdir:

**عَجَبًا لِأَمْرِ الْمُؤْمِنِ، إِنَّ أَمْرَهُ كُلَّهُ خَيْرٌ، وَلَيْسَ ذَاكَ لِأَحَدٍ إِلَّا لِلْمُؤْمِنِ، إِنْ أَصَابَتْهُ سَرَّاءُ شَكَرَ، فَكَانَ خَيْرًا لَهُ، وَإِنْ أَصَابَتْهُ ضَرَّاءُ، صَبَرَ فَكَانَ خَيْرًا لَهُ.**
**“Möminin halı təəccüblüdür. Onun başına nə gəlirsə gəlsin, hər şeydə bir xeyir var. Bu isə ancaq möminə verilib. Əgər ona bir yaxşılıq gəlsə, şükür edər və bu da onun üçün xeyirlidir. Əgər xoşagəlməz bir şey olarsa, səbr edər və bu onun üçün xeyirlidir”.** (Muslim 2999)

Həmçinin, mömin xatırlamalıdır ki, dünyada ən çox, Peyğəmbər ﷺ imtahana çəkilmişdir:

- sehrbaz olmaqda ittiham olundu

- dəli olmaqda ittiham olundu

- zövcəsinə iftira atdılar

- İki ay boyunca, evində od yanmadı

- Köhnə həsirin üzərində yatırdı, böyründə izlər qalırdı

- Bir dəfə də olsa çörəyi doyunca yemədi

- Xəstə olanda, bizim hiss etdiyimizdən iki dəfə güclü olan ağrını hiss etdi

- Qarnına daş bağlayırdı, güclü aclıq hiss edəndə

- Ona cadu (sehr) etmişdirlər

- Onun birinci ailəsi (Xədicə və onun övladları Fatimədən başqa) peyğəmbərdən ﷺ əvvəl vəfat etmişdir

- Onun sağlığında çoxlu sayda səhabələri öldürüldü

- Həmzə kimi yaxın qohumları öldürüldülər

- Blokadada oldu, hətta aclıqdan ağacların yarpaqlarını da yeyib

Və bütün bunlarla peyğəmbər ﷺ, Allahın ən sevimli məxluqlarından biri idi. Allah hamıdan çox, iki insanı sevdi: İbrahimi və MuhamməRdi, Allahın onlara salavat və salamı olsun! Ümumiyyətlə, nə olursa olsun, həmişə Allahın etdiyinə razı qal! Həmçinin çox güman ki, hər birimiz dərdimizin mənbəyini bilirik.

Necə ki, Uca Allah buyurur:

بَلِ الْإِنسَانُ عَلَىٰ نَفْسِهِ بَصِيرَةٌ
**İnsan özü haqqında bilir.**

Allah buyurur:

وَمَا أَصَابَكُم مِّن مُّصِيبَةٍ فَبِمَا كَسَبَتْ أَيْدِيكُمْ وَيَعْفُو عَن كَثِيرٍ
**Başınıza gələn hər bir müsibət, öz əllərinizlə qazandığınız (günahlar) üzündəndir. (Allah) (günahların) çoxunu bağışlayır. (əş-Şura surəsi, 30-cu ayə)**

Həmçinin O buyurur:

وَمَا أَصَابَكَ مِن سَيِّئَةٍ فَمِن نَّفْسِكَ
**Sənin başına gələn bəla isə, sənin özündəndir... (ən-Nisa surəsi, 79-cu ayə)**

Həmçinin buyurur:

ظَهَرَ الْفَسَادُ فِي الْبَرِّ وَالْبَحْرِ بِمَا كَسَبَتْ أَيْدِي النَّاسِ لِيُذِيقَهُم بَعْضَ الَّذِي عَمِلُوا لَعَلَّهُمْ يَرْجِعُونَ
**İnsanların öz əlləri ilə etdiyi əməllərinin nəticəsi olaraq, quruda və dənizdə fəsad törəyir ki, (Allah) onlara, etdiklərinin bir qismini daddırsın. Bəlkə, onlar (haqqa) qayıdalar. (ər-Rum surəsi, 41-ci ayə)**

Həmçinin buyurur:

وَلَنُذِيقَنَّهُم مِّنَ الْعَذَابِ الْأَدْنَىٰ دُونَ الْعَذَابِ الْأَكْبَرِ لَعَلَّهُمْ يَرْجِعُونَ
**Ən böyük əzabdan əvvəl, Biz onlara mütləq, kiçik əzabdan (dünya əzabından) daddıracağıq ki, bəlkə (doğru yola) qayıtsınlar. (əs-Səcdə surəsi, 21-ci ayə)**

**<u>Üçüncü addım.</u>**

Bir günah etsən belə, onu insanlardan gizlət. Sənin günahını, Allahdan başqa heç kəs görməsin.
İblis üçün pulsuz reklam agenti olma. İblisin isə çox işi var.

Cabir ibn Abdullah (Allah ondan razı olsun) Peyğəmbərdən ﷺ belə dediyini rəvayət edir:
**"Həqiqətən, İblis öz taxtını, suyun üzərində, dənizin bir yerində qurdu və sonra ordusunu göndərməyə başladı. (Onun ordusundan), ona ən yaxın olanı isə, ən çox fitnə salandır. Onlardan biri gəlib, deyir: "Mən filan, filan şeyi etdim". (İblis) cavab verir: "Sən heçnə etmədin!" Sonra başqa biri gəlib, deyir: "Mən kişini, arvadından ayırana qədər, ondan əl çəkmədim". Onda (İblis) onu özünə yaxınlaşdırıb deyir: "Sən necə də gözəlsən!" Əməş (Allah ondan razı olsun) (hədis ravilərindən biri) deyib: "Məncə, o həmçinin (İblisin) onu qucaqladığını söylədi".** (Səhihə, 3261)

Elə insanlar var ki, əməklərinin mükafatı cəhənnəm olacağını unudaraq, İblis üçün könüllü çalışırlar! İnsan, İblis üçün necə çalışır? Günahları aşkar etməklə, özü hiss etmədən, şeytan üçün çalışır. Buna görə də, hər hansısa bir günahla imtahan olunsan belə, gizlət onu və bunu yalnız sən və Uca Allah bilsin! Çünkü günahı açıq-aşkar edən, bu günaha səhlənkarlıqla yanaşır.

Və bu günahı ilə fəxr edir.

- Görün mən bu günahı necə edirəm!

- Görün harama necə baxıram!

- Görün harama necə qulaq asıram!

- Görün mən haramdan necə istifadə edirəm!

- Görün özümü və gözəlliyimi insanlara necə göstərirəm!

- Görün mən insanların qeybətini necə edirəm!

Günahları aşkar edən isə, əslində insanları eyni günaha sövq edir. Çünkü insanlar elə yaradılmışdırlar ki, bir-birindən nümunə götürür və hər şeyi bir-birinin ardınca təkrarlayırlar! Bu xüsusilə uşaqlara aiddir.

Çoxları elə bilirlər ki, günahı açıq-aşkar etmək — küçədə, insanların gözü qarşısında etməkdir! Və buna görə də, qardaş öz qardaşları qarşısında, bacı isə öz bacıları qarşısında salehdir! Amma evdə olanda və uşaqlarından başqa heçkim onları görməyəndə sakitcə haram edirlər.

- Haram danışırlar,

- Harama qulaq asarlar,

- Haramlara baxarlar.

Əbu Hureyrənin belə dediyi rəvayət olunur: **“Mən Rəsulullahın ﷺ belə dediyini eşitdim: “Ümmətimdən (günah edən) hər kəs (günahdan və insanların qonağından) azad olacaqlar, yalnız (günahları haqqında) açıq şəkildə danışan istisnadır. Buna misəl olaraq: Kimsə gecə vaxtı bir pis iş görür və Allah taala onun bu eybini örtür. O isə deyir: Ey filankəs! mən dünən belə-belə iş görmüşəm. Allah taala gecə o yatan zaman, onun eybini örtür, o isə səhər açılan kimi öz eybini ifşa etməklə, üzərindən Allahın örtüyünü götürür”.** (Buxari 6069, Müslim 2990)

Sübhan Allah, sosial şəbəkələrin mövcudluğu ilə, dövrümüzdə bu hədis hər zamankından daha aktualdır!!! Və hədisdə, günah işlədən bir kəsdən bəhs edilir ki, o günah etdi və onu heçkim görmədi, lakin o özü sonra bunu danışdı. Bəs insanların gözü qarşısında günah işlədən şəxs haqqında nə deyə bilərik? Və bu insanların içində, onun uşaqlarıda olur! (alimlər deyirlər ki, ən pis xariclər oturan xariclərdir) Deməli, sən evdə olarkən, şeytan üçün pulsuz işləyirsən. Və bununla siz övladlarınızı günaha təşviq edir və çağırırsınız.

- Ana şəkillərini internetə qoyur.

- Qızı da görür və oda bunu edəcək.

- Ata siqaret çəkir, uşaqlar da görür və onlar da edəcəklər.

- Ata qeybət edir, kompüterin qarşısında alimləri söyür, oğul da görür, və oda edəcək.

- Ata filmlərə baxır, qadağan olunmuş şəkillərə baxır, uşaq da bunu görür və edəcək və belə misalları sonsuza qədər çəkmək olar!

Valideyn, şeytanın işində karyera nərdivanını qalxdıqda, bu daha da pisdir. Övladının dinə can atdığı zaman, o isə

bunu qadağan edir! Ata və ya ana uşağa namaz qılmağı, oğlana saqqal saxlamağı, qıza hicab taxmağı və sair qadağan edirlər!" Ən təəccüblüsü odur ki, elm adamları, insanın günahlarını gizlətməli olduğunu qeyd edir. Bunu etməyi öyrənsən, bu əməl, günah işlətdikdə sənə savabın yazılmasına səbəb olacaqmı?

Bu mümkündürmü? Bəli! Ola bilər! Günahın içində səvab!
Günah edib, onu gizlətməyə çalışdığınız zaman, bunu Allahı ucaltmağa görə edirsiniz. Çünki O, sizə bunu əmr etmişdir. Və bu zaman sənin günahlarının silinməsi azmış kimi, necə ki, Peyğəmbər ﷺ demişdir, **"Ümmətimin bütün üzvləri (günahdan və ya insanların qınamasından xilas olacaqlar), günahlarını və pis işlərini ifşa edənlərdən başqa"**, üstəlik sənə günahını gizlətmək istədiyin üçün, xeyir əməl də yazılacaqdır! Sübhan Allah! Sanki Allah deyir ki, "yaxşı, günahdan əl çəkə bilmirsən, sənə bir şans verim. İblis üçün çalışma. Günahını gizlət!

İbn Ömər (radıyallahu anhu) rəvayət edir ki, **"Mən Rəsulullahın ﷺ belə dediyini eşitdim: "Qiyamət günü, mömin Rəbbinə yaxın olacaq və Allah, mömini Öz himayəsinə alacaq. Və O, onu günahlarını etiraf etməyə məcbur edəcək, soruşaraq: "Filan günahı etiraf edirsənmi, filan günahı etiraf edirsənmi?", – o isə cavab verəcək: "Etiraf edirəm, ya Rəbbim!", – və O deyəcək: "Həqiqətən, mən sənin günahlarını yer üzündə örtdüm (çünki sən özün onları başqalarından gizlətməyə çalışdın) və bu gün onları sənə bağışlayacağam!", - Bundan sonra, ona yaxşı əməllərinin qeydləri olan bir kitab veriləcəkdir."** (Buxari 2441, 4685, Müslim 2768)

Allahın rəhmətinin genişliyinə bax! Sən İblis üçün işləmirdin, günahlarını gizlədirdin, Allah da bu günahları bağışlamaqla, sənə mükafatını verəcək! Odur ki, bu fürsətdən yararlan! Hətta hər hansısa bir günahla sınansan belə, hər hansısa bir şəhvətin öhdəsindən gələ bilməsən! Gizlət onu! İblis üçün çalışma!

Xüsusilə internetdə, məşhur insanlara üz tutmaq istəyirəm. Yəni abunəçi sayı çox olanlara! Ola bilsin ki, sən nəsə paylaşarsan və bu sənə alçaq bir zövq verir. Amma bilin ki, haram ləzzət, xoşbəxtliyə aparmır! Ləzzət və xoşbəxtlik arasında fərq var. Axı, bəzən belə olur ki, siz tamamilə depressiyaya düşmüş, kədərli və bədbəxt olduğunuz halda, dadlı yemək yeyə və ya dadlı içki içə bilirsiniz! Həmçinin o kəs ki, bir anlıq ləzzətdən ötrü günahlarından danışır, xüsusən də internetdə, bilsin ki, bu ləzzət sənə xoşbəxtlik gətirməyəcək.

Uca Allah quranda buyurur:

وَمَنْ أَعْرَضَ عَن ذِكْرِي فَإِنَّ لَهُ مَعِيشَةً ضَنكًا
**Kim Mənim Zikrimdən üz döndərsə, onun güzəranı sıxıntılı olacaq… (Ta ha surəsi, 124-cü ayə)**

Odur ki, əgər Allah sənə məşhurluq bəxş edibsə, onu heç bir halda günah üçün istifadə etmə.
Ən yaxşısı, onu sizi Allaha yaxınlaşdıracaq bir işdə və ya heç olmasa sadəcə olaraq icazəli olan bir şeydə istifadə et! Hiss etmədən, Allahın düşməni ilə çalışma!

**Dördüncü addım.**

Günahda həddi aşmayın. Yəni 24/7 bunu etmək lazım deyil. Günahınızı minimuma endirməyə çalışın. Əgər Allah, səni haramı dinləməklə sınayıbsa. Ya da qadağan olunmuş bir şeyə baxırsansa, bütün gün bunu etmə! Həqiqətənmi bu günahların, sənin günah kasanı doldurması sənin üçün o qədər əhəmiyyətsizdir?

وَنَضَعُ الْمَوَازِينَ الْقِسْطَ لِيَوْمِ الْقِيَامَةِ فَلَا تُظْلَمُ نَفْسٌ شَيْئًا
**Biz qiyamət günü, ədalət tərəziləri ilə haqq-hesab çəkəcəyik. Heç kimə hər hansısa bir şeydə ədalətsizlik edilməyəcəkdir.**

وَإِن كَانَ مِثْقَالَ حَبَّةٍ مِّنْ خَرْدَلٍ أَتَيْنَا بِهَا وَكَفَىٰ بِنَا حَاسِبِينَ
**(Görülmüş iş) bir xardal dənəsi mislində olsa belə, onu gətirib (tərəziyə) qoyacağıq. Biz haqqı araşdırmağa bəs edərik. (əl-Ənbiya surəsi, 47-ci ayə)**

فَأَمَّا مَن ثَقُلَتْ مَوَازِينُهُ
**(O gün) kimin tərəziləri ağır gələrsə,**

فَهُوَ فِي عِيشَةٍ رَّاضِيَةٍ
**xoşbəxt güzəran sürəcək.**

وَأَمَّا مَنْ خَفَّتْ مَوَازِينُهُ
**Kimin tərəziləri yüngül gələrsə,**

فَأُمُّهُ هَاوِيَةٌ

**anası Haviyə olacaqdır (uşağın anasına sığındığı kimi günahkarlar da Cəhənnəmə sığınırlar; yada günahkarlar baş üstə cəhənnəm uçurumuna düşəcəklər). (əl-Qariə surəsi, 6 - 9-cu ayələr)**

Buna görə də, nə vaxtsa günah işlətsən də, qoy həmin vaxt günün kiçik bir hissəsi olsun. Qalanını yaxşı əməllərini doldurmaq üçün istifadə et! Heç olmasa sadəcə istək və niyyət olsun!

Peyğəmbər ﷺ demişdir:
**"Həqiqətən Allah, yaxşı və pis əməlləri yazmışdır, sonra isə öz kitabında bunu açıqlamışdır:**

**– "Hər kim yaxşı bir iş görmək qərarına gəlsə, lakin onu etməsə, Allah onu tam yaxşılıq kimi Öz yanında yazacaqdır;**

**- əgər bir insan bir yaxşı iş görmək qərarına gəlsə və onu yerinə yetirsə, Allah onun üçün ondan yeddi yüzə qədər və daha çox savab yazar;**

**- O kəs ki, pis bir iş görməyə qərar versə, lakin bunu etməsə, Allah bir səvab kimi onu Öz yanında yazacaqdır,**

**- "Əgər pis bir iş görmək qərarına gəlsə və onu etsə, Allah onun üçün bir pislik yazar. Allah yanında ancaq azmışlar həlak olarlar!"**

**Yaxşı əməllər etmək üçün, 3 seçim yolun var:**

- yaxşılıq etmək üçün niyyət etdinsə - bir səvab

- yaxşılığı etdinsə, 10-dan 700-ə qədər və ya daha çox səvab yazılır

- günah etmək niyyətində olub, onu tərk etdinsə - yalnız bir səvab yazılır

Buna görə də, heç bir halda pis əməlləri, yaxşılıqlarından çox olanlardan olma, çünki Peyğəmbər ﷺ hədisin sonunda, **"Allah yanında ancaq azmışlar həlak olarlar!"** demişdir.

Onu da unutmaq olmaz ki, xeyirxah əməllərin, kasasını boşaldan əməllər var. (Biz sizinlə, Bəqavi təfsirində, Əraf surəsinin, 8-ci ayəsini təhlil edərkən, tərəzi və onu dolduran və boşaldan şeylərdən ətraflı danışdıq) Buna görə də, hətta əgər hər hansısa bir günahı etmək istəsən də, qoy bu əməl məcburi bir iş olsun, misal üçün leş ət yemək kimi.

Bəzən şeytan gəlib, deyir: "Hə, gəl et bunu", Şərli nəfs deyir "Hə, gəl et bunu", Pis cəmiyyət deyir. "Hə, gəl et bunu" və sən də etdin. Və bu qədər. Necə deyərlər, Təzyiq altından çıxdın. Bağışlanma dilə, tövbə et! Axı, bütün günü, qadağan olunanı etməyə ehtiyac yoxdur! Bütün günü günah etməyə ehtiyac yoxdur! İnsan elə bir vəziyyətə düşmür ki, şeytanın vəsvəsəsindən və ehtiras partlamasından özünü saxlaya bilməsin və bütün günü günah işlətsin! Bu yemək kimidir. Sən acsan, o qədər yemək istəyirsən ki, hətta titrəyirsən acından. Və sonda yedin! Rahatlandın! 24 saat yemək yeməyə ehtiyac yoxdurki?! Allah, məxluqları haqqında bilir ki, onların törətdikləri, çoxlu günahların heç bir səbəbi yoxdur.

Əbu Hureyrə rəvayət edir ki, Rəsulullah ﷺ buyurdu:
**"Dörd kəsə, Böyük və Uca Allah nifrət edir: daim and içən satıcı, təkəbbürlü kasıb, zinakar qoca və zalım hökmdar".** (Səhihə, 363)

Əgər siqaret çəkənsənsə, siqaretlərdə nikotin və ya kimyəvi maddələrin dozasını azaltmağa başlayın. Və dozanı azaltmaqla, sən günahdan qurtulmağa çalışırsan və bunun üçün sənə bir xeyir əməl yazılacaq! Sübhan Allah! Gündə 20 siqaret çəkirdin! Və gündə bir dənə azaltmağa başladın! 19 siqaret çəkirsən və bunun üçün sənə bir xeyir əməl yazılır! Axı sən bunu Allah rizası üçün edirsən! Günahdan qurtulmaq üçün! Allahı ucaldaraq! Allah üçün çalışaraq! Bəlkə 20 dənə çəkmisən, amma Allah rizası üçün günahdan qurtulmaq üçün 19, sonra 18 dənə çəkməyə başladın və bunun üçün Allah sənə səvab yazar!

Bəzən, bəziləri ümidsizliyə qapılıb, dayanmadan günahlar edirlər, bu qədər günaha artıq heçnə fayda verməz şüarı altında! Təsəvvür edin, hansısa iş adamı, pul qazanmağa çalışır, biznes açır, hardasa mənfiyə gedir, hardasa yanır ticarətində. Məgər o adam biznesini dayandırırmı? Yox! Davam edir! Hər bir uğurlu iş adamının hekayəsi, praktiki olaraq belə başlayıb. Sən də! Təslim olma! Səy göstər! Mütləq alınacaqdır.

**Beşinci addım.**

Əgər günaha batsan, bağışlanma dilə və tövbə et. Tövbə qapıları, ruh bədəndə olana qədər və ya günəş qərbdən çıxana qədər açıqdırlar. Bəzi insanlar, elə bilirlər ki, tövbə etmək üçün - saleh, müqəddəs, dindar, təqvalı və sair olmaq lazımdır. Əslində, hər şey heç də belə deyil. Allahın izni ilə, tövbə etmək olduqca sadə bir işdir.

1. Dayan! Yəni günahı tərk et! Sən bunu, günün 24 saatı ərzində etmirsənki!? Bax, indi yatmağa hazırlaşırsan, yuxuda günah işlətməyəcəksənki!? Ona görə də, yatağına uzan!

2. Təəssüf etmək! Yəni uzanırkən, bu barədə düşün. Mən bunu niyə etdim? Axı bu günahdır! Allah bunu haram etdi! Məni yaradan, yedizdirən, içizdirən, mənə İslam kimi böyük neməti bəxş edən - mənim bu əməlindən razı deyil! Və peşman olmağa başla!

3. Aydındır ki, peşman olmağa başlayanda, düşünməyə çalışacaqsan ki, inşəAllah bu günaha qayıtmamağa çalışacaqsan! Ondan, bu işdə sənə kömək etməsini istə!

4. Əgər günah, insanların haqqı ilə bağlıdırsa, onu bir şəkildə düzəltməyə çalışın! Çətin bir şey yoxdur! Və bu qədər. Bu sənin tövbəndir!

Yaxşı, əgər mən tövbə etsəm və yatsam. Bundan sonra nə olacaq!?

- Allah səni bağışlayar. (يعفو عنك) Yəni, cəzalandırmaz!

- Səni günahının nəticələrindən qoruyacaq (يغفر لك).

- Günahını yaxşılığa çevirər.

وَالَّذِينَ لَا يَدْعُونَ مَعَ اللَّهِ إِلَٰهًا آخَرَ وَلَا يَقْتُلُونَ النَّفْسَ الَّتِي حَرَّمَ اللَّهُ إِلَّا بِالْحَقِّ وَلَا يَزْنُونَ وَمَن يَفْعَلْ ذَٰلِكَ يَلْقَ أَثَامًا
**Onlar, Allahla yanaşı, başqa tanrıya yalvarmaz, Allahın haram etdiyi cana, haqsız yerə qıymaz və zina etməzlər. Bunu edən kimsə cəzalandırılar.**

يُضَاعَفْ لَهُ الْعَذَابُ يَوْمَ الْقِيَامَةِ وَيَخْلُدْ فِيهِ مُهَانًا
**Qiyamət günü onun əzabları qat-qat artırılarlar və onlar bu əzabların içində zəlil olub əbədi qalarlar.**

إِلَّا مَن تَابَ وَآمَنَ وَعَمِلَ عَمَلًا صَالِحًا فَأُولَٰئِكَ يُبَدِّلُ اللَّهُ سَيِّئَاتِهِمْ حَسَنَاتٍ وَكَانَ اللَّهُ غَفُورًا رَّحِيمًا
**Ancaq tövbə edib, iman gətirən və saleh əməllər edənlərdən başqa. Allah onların pis əməllərini, yaxşı əməllərlə əvəz edər. Allah Bağışlayandır, Rəhmlidir! (əl-Furqan surəsi, 68 - 70-ci ayələr)**

Həmçinin, Peyğəmbər ﷺ buyurur: **"İnsan qiyamət günü, gətirilər və onun kiçik günahları ona göstərilərlər. Böyük günahları isə, ondan gizlədəcəklər! Və biz bilirik ki, ondan soruşacaqlar ki: "Filan gündə, filan günah işlədinmi?" Filan gündə, filan günah?" O hər şeylə razılaşar, heç nəyi inkar etməz! Və eyni zamanda o, böyük qorxu içində olacaq! Sonra deyəcəklər: "Onun bütün günahlarını, yaxşı əməllərlə əvəz edin. Bundan sonra, o deyəcək! Mənim burada görmədiyim günahlarım var!"**

Əbu Zəra (bu hədisin ravisi) deyib ki, **"Mən Peyğəmbərin ﷺ elə güldüyünü gördüm ki, arxa dişləri göründü".**

Sübhan Allah! Əməl tərəzisini xatırlayın! Beləliklə, bütün günahlar, yaxşı əməllərə çevrilir! Təsəvvür edin ki, bir insan, qara flomasterlə ağ lövhənin üzərini rəngləyib. Yatmağa gedib! Səhər oyanır, lövhə ağ və təmizdir! Sən də həmçinin. Sən tövbə edirsən, səhər oyanırsan və heç bir günahın yoxdur, üstəlik bütün günahlar yaxşılığa çevrilirlər! Bax, sən ömründə 100.000 yaxşılıq və 100.000 günah etmisən, amma yaxşılıqları heç vaxt unutmamısan! Və qiyamət günündə, tərəzidə dayanırsan, 200 min yaxşılıq! Allahu Əkbər! Günahların, tövbən olduğu üçün, sənin xeyrinə işləyirdilər!

Birisi deyir: “Bəs bu günahı yenidən etsəm necə olacaq?”
Unutmayın ki, “bir daha bu günahı etməmək, tövbənin qəbul olunması üçün şərt deyil” Ağ lövhə haqqında danışdığımız kimi! Səhər lövhə təmiz idi. Yenə qara nöqtə çəksən, əvvəl yazılanları qaytaracaqmı? Yox! Tövbə məsələsində də belədir.

Əbu Hüreyrənin (Allah ondan razı olsun) sözlərindən rəvayət olunur ki, Peyğəmbər ﷺ Uca Rəbbinin sözlərini çatdıraraq belə buyurdu: **“Allahın bəndələrindən biri, bir günah işlətdiyi zaman: “Allahım, mənim günahımı bağışla!” dedi, – və Uca Allah buyurdu: “Mənim bəndəm (yəni Allah sənin qəlbinə baxır), onun bütün günahları bağışlayan və günahları cəzalandıran, bir Rəbbi olduğunu bilə-bilə günah etdi”.** (Bu sözlər tövhidi öyrənməyin, Allahın ad və sifətlərini tanımağın vacibliyinə dəlalət edir) **Sonra o yenə günah işlətdi və dedi: “Ey Rəbbim, mənim günahımı bağışla!”, – və Uca Allah buyurdu: “Qulum, günahı bağışlayan və cəzalandıran, bir Rəbbinin olduğunu bilə-bilə günah etdi”. Sonra o yenə günah işlətdi və dedi: “Ey Rəbbim, mənim günahımı bağışla!”, – və Uca Allah buyurdu: “Qulum, günahı bağışlayan və cəzalandıran, bir Rəbbinin olduğunu bilə-bilə günah etdi və Mən bəndəmi bağışladım, qoy istədiyini etsin!”** (Buxari 7507, Müslim 2758)

Uca Allahın **“...istədiyini etsin!”** kəlamı o deməkdir ki: nə qədər ki, bunu edir, yəni günah edib tövbə edir, mən onu bağışlayacağam, çünki, həqiqətən, tövbə - əvvəllər olanları məhv edir.

Biz tövbənin nəticələrindən danışdıq.

- Allah səni bağışlayar (يعفو عنك). Yəni, cəzalandırmaz!

- Səni günahının nəticələrindən qoruyacaq (يغفر لك).

- Günahını yaxşılığa çevirər.

- Allahı razı salacaqsan.

Baxın necə heyrətamizdir. Günahlarımız, Ona zərər vermədiyi kimi, yaxşı əməllərimiz də Allaha fayda verməz.

**Ey Mənim qullarım, həqiqətən, siz Mənə nə bir zərər verə, nə də bir fayda verə bilərsiniz! Ey Mənim qullarım, əgər sizdən ilk və axırıncınız olan, insanlar və cinlər, sizdən ən təqvalı insanın qəlbi kimi təqvalı olsaydı, mənim malik olduqlarıma heç bir şey artırmazdı! Ey Mənim qullarım, əgər sizdən ilk və axırıncı olan, insanlar və cinlər, ən fasiqinizin qəlbi kimi fasiq olsaydı, bu, mənim mülkümdən heç bir şey azaltmazdı!**

Və eyni zamanda O, tövbəmizə də sevinir. Peyğəmbər ﷺ buyurur: “**Allah Öz bəndəsinin tövbəsinə, sizin hər birinizin, səhrada itirdiyi dəvəsini görəndə, sevindiyindən daha çox sevinir!”**

Bu da, Onun bəndələrinə olan rəhmətinin böyüklüyünə dəlalət edir. Ona görə də, Yaradanını sevindir!

Həmçinin tövbənin nəticələrindən, Allah səni sevəcək.

**ِنَّ اللَّهَ يُحِبُّ التَّوَّابِينَ وَيُحِبُّ الْمُتَطَهِّرِينَ**
**“Şübhəsiz ki, Allah tövbə edənləri də sevir, pak olanları da”. (əl-Bəqərə surəsi, 222-ci ayə)**

«**تائبين**»“Təibiin” demədi, «**توابين**» “Təvvaabiin” dedi.

**<u>Altıncı addım.</u>**

Əgər günah etmisənsə, ondan sonra, dərhal yaxşılıq et və bu da günahın bağışlanmasına səbəb olar.

Uca Allah buyurur:

**وَأَقِمِ الصَّلَاةَ طَرَفَيِ النَّهَارِ وَزُلَفًا مِّنَ اللَّيْلِ**
**Gündüzün iki başında (əvvəlində və axırında), və gecənin bəzi saatlarında namaz qıl!**

إِنَّ الْحَسَنَاتِ يُذْهِبْنَ السَّيِّئَاتِ ذَٰلِكَ ذِكْرَىٰ لِلذَّاكِرِينَ
**Həqiqətən, yaxşı işlər pis əməlləri silib aparır. Bu, yada salanlar üçün bir xatırlatmadır. (Hud surəsi, 114-cü ayə)**

Biz əvvəl dedik ki, bizim ya yaxşı əməllərimiz var, ya da günahlarımız var. Yaxşı əməllər, günahları məhv edir! (Günahların Kəffarəsi silsilə dərslərdə)

Əbu Hureyrə (Allah ondan razı olsun) rəvayət edir ki, Rəsulullah ﷺ buyurdu:
**"Bir dəfə, yolu ilə gedən bir nəfər, şiddətli susuzluqdan əziyyət çəkməyə başladı. O, bir quyu tapıb oraya düşüb oradan su içir, çıxanda isə qəfil qarşısında susuzluqdan dilini çıxarıb yaş torpaq yeyən bir it görür. Və bu şəxs deyir: "Mən susuzluqdan əziyyət çəkdiyim kimi, bu it də əziyyət çəkir", - sonra yenidən quyuya düşdü, dəri corabını su ilə doldurdu, dişlərinə aldı və (quyudan çıxıb), itə su verdi. Və sonra, Allah Subhanahu va Təalə bu əmələ görə, onun günahlarını bağışlayaraq, bu cür mükafatlandırdı onu". İnsanlar soruşdular: "Ey Allahın Rəsulu! Məgər biz, heyvanlara görə mükafat alırıq?" O buyurdu: "Hər bir canlıya görə mükafat vardır".**

**Başqa bir rəvayətdə, Əbu Hureyrədən (Allah ondan razı olsun) rəvayət olunur ki, Peyğəmbər ﷺ buyurdu: "Bir gün, bir it, quyunun ətrafında qaçırdı və susuzluq onu az qala öldürəcəkdi. Bənu İsrailin əxlaqsız qadınlarından biri, onu görüb, ayaqqabısını çıxarıb, içinə su doldurdu və itə su verdi. Bu səbəbdən də o bağışlandı".** (Əs-Səhihə, 30).

Diqqət edin, yaxşı bir əməl, pis əməlləri məhv etdi! Odur ki, əgər şeytan səni günaha sürükləməklə, sənə bir zərbə vurdusa, yaxşılıq etmək şəklində, bir zərbə ilə ona cavab ver.

ِنَّ الشَّيْطَانَ لَكُمْ عَدُوٌّ فَاتَّخِذُوهُ عَدُوًّا
**Şübhəsiz ki, şeytan sizin düşməninizdir, siz də onu düşmən sayın. (Fatir surəsi, 6-cı ayə)**

Günah işlətdin, dərhal İblisə cavab ver, sadəcə dəstəmaz al və iki rükət namaz qıl, oruc tut, sədəqə ver, ata-anaya yaxşılıq et, qonşuya müjdə ver, Quran oxu, dini dərs dinlə, tövhid və ya sünnə dərsindən kiməsə göndər, daima Allahı yad et və sair! Beləcə, İblisi rüsvay edərsən. O, səni bir günaha sürüklədi və cavabında hər biri on qat yazılmış, bir dəstə yaxşılıq etdin! Düşmən sənə bir zərbə vurur, sən də dərhal ona ardıcıl zərbələr endirirsən!

Yaxşı əməllər və günahlar, içinə bir qaşıq mürəkkəb tökülmüş, bir stəkan təmiz su kimidirlər. Necə təmizləmək olar suyu? Oraya təmiz su tökərək! Ona görə də, biz çalışmalıyıq ki, xeyirxah əməllər bizim daimi keyfiyyətimiz olsunlar!

Bəziləri deyirlər. "Mən necə günah işlədib, sonra yaxşı əməllər edə bilərəm? Bu, mənim tərəfimdən ikiüzlülük və riyakarlılıq deyilmi?" Şeytan onlara bu cür bəzəyir.

İbn Rəcəb (Allah ona rəhmət etsin) belə demişdir: **"Bir insan, öz pis əməllərinə üzülürsə və bu səbəbdən də yaxşı işlər görürsə, bütün bunlar onun imanına dəlalət edir".**

Şeytan deyir ki, bu riyakarlıqdır, din isə deyir ki, bu, imanın varlığına işarədir! Şeytanın, sənin qəlbini öldürməsinə icazə vermə!

Rəvayət edilir ki, Ənəs (Allah ondan razı olsun) demişdir:

**- (Bir dəfə) bir nəfər Peyğəmbərin ﷺ yanına gəlib, dedi: "Ey Allahın Rəsulu, mən hökmlərdən birini pozdum, məni cəzalandır!" (Və bu zaman) namaz vaxtı gəldi və bu şəxs Rəsulullah (sallallahu aleyhi və səlləm) ilə birlikdə namaz qıldı və namazı bitirdikdən sonra, yenə dedi: "Ey Allahın Rəsulu, mən hökmlərdən birini pozmuşam, məni Allahın kitabının tələb etdiyinə tabe et!". Peyğəmbər ﷺ soruşdu: "Sən bizimlə namaza getdinmi?" O dedi: "Bəli", sonra Peyğəmbər ﷺ buyurdu: "Sən bağışlandın".** (Buxari 6823, Müslim 2764)

Bəzi versiyalarda, məhz bu şəxsə görə ayənin nazil olduğu deyilir.

وَأَقِمِ الصَّلَاةَ طَرَفَيِ النَّهَارِ وَزُلَفًا مِّنَ اللَّيْلِ إِنَّ الْحَسَنَاتِ يُذْهِبْنَ السَّيِّئَاتِ ذَٰلِكَ ذِكْرَىٰ لِلذَّاكِرِينَ
**Gündüzün iki başında (əvvəlində və axırında), və gecənin bəzi saatlarında namaz qıl! Həqiqətən, yaxşı işlər pis əməlləri silib, aparırlar. (Hud surəsi, 114-cü ayə)**

Bu, yada salanlar üçün bir xatırlatmadır. Ona görə də Allahdan uzaqlaşma! Günah etsən də, yenə də uzaqlaşma!

**<u>Yeddinci addım.</u>**

Allahın mərhımətindən ümidini üzmə.

**قُلْ يَا عِبَادِيَ الَّذِينَ أَسْرَفُوا عَلَىٰ أَنفُسِهِمْ لَا تَقْنَطُوا مِن رَّحْمَةِ اللَّهِ إِنَّ اللَّهَ يَغْفِرُ الذُّنُوبَ جَمِيعًا إِنَّهُ هُوَ الْغَفُورُ الرَّحِيمُ**
**(Qullarıma, mənim bu sözümü) de: "Ey Mənim özlərinə qarşı həddi aşmış ("günah etmiş" demədi, "həddi aşmış" dedi) qullarım! Allahın rəhmindən ümidinizi üzməyin. Şübhəsiz ki, Allah bütün günahları bağışlayır. O, həqiqətən, Bağışlayandır, Rəhmlidir!" (əz-Zumər surəsi, 53-cü ayə)**

Sənin günahların nə qədər böyük olsa da, bil ki, Allahın bağışlaması, günahlarından daha böyükdür, rəhməti daha böyükdür! Allah bizə, analarımızdan daha mərhəmətlidir.

**كَتَبَ عَلَىٰ نَفْسِهِ الرَّحْمَةَ**
**(Allah) Özünə rəhmli olmağı yazmışdır. (əl-Ənam surəsi, 12-ci ayə)**

**وَرَحْمَتِي وَسِعَتْ كُلَّ شَيْءٍ**
**Mərhəmətim isə hər şeyi əhatə edir. (əl-Əraf surəsi, 156-cı ayə)**

**فَسَأَكْتُبُهَا لِلَّذِينَ يَتَّقُونَ وَيُؤْتُونَ الزَّكَاةَ وَالَّذِينَ هُم بِآيَاتِنَا يُؤْمِنُونَ**
**Mən onu (Allahdan) qorxan, zəkat verən və ayələrimizə iman gətirənlər üçün yazacağam. (əl-Əraf surəsi, 156-cı ayə)**

"Ömər ibn Xəttabın (Allah ondan razı olsun) belə dediyi rəvayət olunur:
**(Bir vaxt) Rəsulullahın ﷺ yanına əsirlər gətirildilər və onların arasında kimisə axtaran bir qadın var idi və o qadın, əsirlərin arasında bir uşaq tapdıqda, onu götürüb, qucaqlayırdı və ona süd verirdi. (Bunu görən) Rəsulullah ﷺ soruşdu: "Sizcə bu (qadın) öz uşağını oda atırmı?" Biz dedik: "Allaha and olsun ki, yox!" Onda o dedi: "Allah isə Öz bəndələrinə qarşı, o qadının öz övladına olan mərhəmətindən daha mərhəmətlidir!"** (Buxari 5999, Müslim 2754)

Peyğəmbər ﷺ dedi ki, Uca Allah buyurdu: **"Mənim rəhmətim, qəzəbimi üstələyib!"**

Ənəsin (Allah ondan razı olsun) sözlərindən nəql edilir ki, o, Rəsulullahın ﷺ belə dediyini eşitdi:
**"Ey Adəm övladı, həqiqətən, Mənə dua etməyi və Mənə təvəkkül etməyi dayandırana qədər, nə qədər günah etsən də, səni bağışlayacağam! Ey Adəm övladı, əgər sən, səmanın buludlarına çatacaq qədər günah etsən, sonra Məndən bağışlanma diləsən, mən səni bağışlayaram! Ey Adəm övladı, həqiqətən, əgər sən Mənim yanıma, az qala bütün yer üzünü dolduracaq qədər günahla gəlsən, amma Mənimlə bərabər başqa heç bir şeyə ibadət etmədən, Mənə qovuşsan, səni mütləq bütün günahların hamısını örtəcək bağışlanma ilə bağışlayaram."** (Bu hədisi ət-Tirmizi 3540 rəvayət edir və o deyir: "Yaxşı, səhih hədisdir")

Uca Allah buyurur:

**وَمَن يَقْنَطُ مِن رَّحْمَةِ رَبِّهِ إِلَّا الضَّالُّونَ**
**(Doğru yoldan) azanlardan başqa, Rəbbinin mərhəmətindən kim ümidini üzər? (əl-Hicr surəsi, 56-cı ayə)**

Yəni yalnız dəli düşünə bilər ki, Allah onu bağışlaya bilməz. Allah, müşrikləri bağışlamaz.

**إِنَّ اللَّهَ لَا يَغْفِرُ أَن يُشْرَكَ بِهِ وَيَغْفِرُ مَا دُونَ ذَٰلِكَ لِمَن يَشَاءُ**
**Şübhəsiz ki, Allah Özünə şərik qoşulmasını bağışlamaz, bundan başqa (günahları) isə dilədiyi kimsəyə bağışlayar. (ən-Nisa surəsi, 48-ci ayə)**

Əgər möminsinizsə, o zaman unutmayın ki, yuxarıda qeyd olunan "ƏzZumər" surəsində olan, ayəsinin işarə etdiyi kimi, Allah hər şeyi bağışlayacağını vəd etmişdir. Şeytan, bizi günaha sürükləyənə qədər, bizi təqib edər. O, səni günaha sürükləyəndə, ümidsizlik zindanına aparır. Deyir ki: "Allahın səni bağışlayacağını güman edirsənmi."

"Narkotik qəbul edib, spirtli içki qəbul edirdin", "zina edirdin", "haqsız yerə insanların malını yeyirdin", "rüşvət alırdın" və sair" Bu zindanda qalmağın üçün, Allahın rəhmətindən ümidini kəsməyə məcbur edir.

Peyğəmbər (sallallahu aleyhi va səlləm), Allahın, bir insanın günahını necə bağışlamasından danışdı. Və mən əminəm ki, bizim aramızda və bu dərsi eşidənlər arasında, o insan kimi olan bir adam yoxdur.

Əbu Səid Səd ibn Malik bin Sinan əl-Xudridən (Allah ondan razı olsun) rəvayət olunur ki, Peyğəmbər ﷺ buyurdu:
**- Sizdən əvvəl yaşamış insanlar arasında, doxsan doqquz canı məhv edən bir adam var idi, sonra o adam, (insanlardan) yer üzündə yaşayanlar arasında ən arif olanın kim olduğunu soruşmağa başladı və ona, İsrail oğullarından bir rahibə yönəltdilər** (Bizim dövrümüzdəki anlayışlarımıza görə hər bir saqqallı) **və bu adam, rahibin yanına getdi, doxsan doqquz nəfəri (hər biri kiminsə əri, qardaşı, oğlu, atası idi) öldürdüyünü dedi və soruşdu ki, tövbə ona fayda verəcəkmi? Rahib ona dedi: "Xeyr", - və o zaman bu adam, o rahibi də öldürərək, məhv etdiyi canların sayını yüzə çatdırdı. Sonra o yenə insanlardan soruşmağa başladı ki, yer üzündə yaşayanlar arasında kim ən biliklidir? Və ona, arif bir adamı göstərdilər. Onunla görüşüb, yüz adam öldürdüyünü dedi və soruşdu ki, tövbə ona fayda verəcəkmi? O dedi: "Bəli! Tövbə edənin, tövbəyə gəlməsinə kim mane olur? Filan torpaqlara get, orada Allahu Taaləya ibadət edən insanlar yaşayırlar, onlarla birlikdə Allaha ibadət et və öz torpağına qayıtma, çünki bu torpaqda pislik baş verir!" Və bu adam, (oraya) yola düşdü, lakin yolun ortasında ölüm onu yaxaladı və bu adama görə, rəhmət mələkləri ilə əzab mələkləri öz aralarında mübahisə etməyə başladılar. Rəhmət mələkləri dedilər: "O, qəlbini Uca Allaha çevirərək, tövbə edərək gedirdi!" Əzab mələklərinə gəlincə, onlar dedilər: "Həqiqətən o, heç bir yaxşılıq etməmişdir!" (Hətta 100 canı məhv edib) Və o zaman, onların yanına adam surətində bir mələk gəlir və onlar onu ixtilafına hakim seçirlər, . O dedi: "Bu iki yerə qədər olan məsafəni ölçün, onlardan hansı daha yaxındırsa, o şəxs, ona məxsus olar. Ölçdükdən sonra, onun getmək istədiyi əraziyə daha yaxın olduğunu gördülər və rəhmət mələkləri onu özləri ilə apardılar".** (Buxari 3470, Müslim 2766)

Bu hədisin "Səhih"də nəql olunan, başqa bir variantında Peyğəmbərin ﷺ belə dediyi bildirilir:
**- O, kəndə (salehlərin yaşadığı yerə) bir qarış yaxın olduğu üçün, orada yaşayanlardan sayılırdı.**

Bu hədisin "Səhih"də nəql olunan, başqa bir variantında Peyğəmbərin ﷺ belə dediyi bildirilir:
**- Uca Allah, yerin bir hissəsinə uzaqlaşmağı, digər hissəsinə də yaxınlaşmağı əmr etdi və sonra: "Onlara qədər olan məsafəni ölçün" dedi. Və o adamın, bu torpağa bir qarış yaxın olduğunu gördülər və (sonra onun günahları) bağışlandı. (100 canın qatilinə görə, Allah torpağa hərəkət etməyi əmr etdi)**

Bu hədisin "Səhih"də sitat gətirilən, başqa bir variantında rəvayət olunur ki, Peyğəmbər ﷺ belə demişdir:
**- ... və o adam sinəsi ilə ora tərəf tələsirdi.**

Yəqin ki, bir çoxumuz, heç vaxt canlı-canlı bir qatili görməmişik. Burada isə 100 canın qatili var. Əgər kimsə soruşsa ki, bu insanların haqqı necə? Bəs onların qohumlarının hüquqları necə? Allah özü qiyamət günü, onlarla məşğul olacaq və onları sevindirər. Əsas səmimi olmaqdır!

Odur ki, qardaşım və bacım, günahlarınız nə olursa olsun, Allahın bağışlaması və rəhməti daha geniş və daha böyükdür!

**وَرَحْمَتِي وَسِعَتْ كُلَّ شَيْءٍ**
**Mərhəmətim isə hər şeyi əhatə edir. (əl-Əraf surəsi, 156-cı ayə)**

Sonda demək istərdim, əgər hər birimiz, özümüzə qırmızı xətlər çəksək və minalanmış sahədən uzaq dursaq,İsrar etməsək, bir günah işlətsək də belə, onu insanlardan gizlətsək, bu insanlara sizin uşaqlarınız da daxildirlər, günahda həddi aşmasaq və onu minimuma endirsək, əgər günaha batsaq dərhal bağışlanma diləyib, tövbə etsək, və əgər günah etsək, dərhal xeyir əməllər etsək ki, bu da günahın bağışlanmasına səbəb olar və Allahın rəhmətindən ümidimizi kəsməsək, o zaman bütün bunlar, hər birimizin bu dünyada pis əməllərdən qurtulmasına, axirətdə oddan xilas olmasına səbəb olar.

Bir daha!
Bəli, hamımız günah edirik. Amma Allah bizim üçün qapıları açıb! Ona görə də, bir gün şeytan səni yıxsa, Allaha tərəf qalx. Əgər səni ikinci dəfə yıxsa, yenidən qalx. Və beləcə nə qədər ki, sağsan davam et.. Sənə ölüm gəldiyi zaman, ayaq üstə dura bilməyin üçün, bu cür et!